# QLOBALLAŞAN DÜNYADA ALİ TƏHSİLİN PERSPEKTİVLƏRİ VƏ AKTUAL MƏSƏLƏLƏRİ

**Məmmədəli BABAŞLI**

Qafqaz Universiteti,
Bakı / AZƏRBAYCAN

*mbabasli@qafqaz.edu.az*

**XÜLASƏ**

Həyatın bütün sahələrini əhatə edən və getdikcə dərinləşən qloballaşma prosesi sürətlə da-vam edir. Baş verən dəyişikliklər hər bir millət və dövlət üçün həyati əhəmiyyət daşıyan təh-sil sisteminə də birbaşa təsir göstərir. Ali təhsil sahəsində beynəlxalq təhsil məkanına inteq-rasiya, universitetlər arasında əlaqələrin getdikcə vüsət qazanması müasir biliklərə yiyələnmiş kadrlara ehtiyacı artırır.

**Açar sözlər:** qloballaşma, inteqrasiya, ali təhsil.

**THE PERSPECTIVES AND ACTUAL PROBLEMS OF HIGHER EDUCATION SYSTEM IN GLOBAL WORLD**

**ABSTRACT**

Globalization process can be felt deeper and deeper in all fields in life, and going on very fast. Changes caused by globalization affect directly the strategically important educational system for each nation, and country. Integration with international educational institutions in higher education, and development of relations among universities increases the necessity for staff equipped with modern and contemporary knowledge.

**Key words:** globalization, integration, higher education.

## I. Giriş

Yeni texnologiyaların meydana çıxması və sürətli dəyişikliklərlə müşayiət olunan qloballaşma prosesinin cəmiyyətlərin, o cümlədən insanların həyatına daha fəal şəkildə nüfuz etməsi artıq inkarolunmaz həqiqətdir. Zaman, məkan anlayışlarının və milli dövlət hüdudlarının getdikcə rəmzi məna daşımağa başlaması ilə səciyyələnən bu proses elmi konsepsiya kimi keçən yüzilin sonlarında formalaşsa da, əsas hadisələrin müasiri olduğumuz XXI əsrdə cərəyan edəcəyi ehtimalı kimsədə şübhə doğurmur. Müasir cəmiyyətləri qlobal problemlərin həllində plüralizmi əsas alan vahid bir dünyanın bərabərhüquqlu üzvləri olaraq qəbul edən bu konsepsiya ölkələr arasında əməkdaşlığın qarşılıqlı şəkildə faydalı olmasını vacib hesab edir. Eyni zamanda, iqtisadi inteqrasiyanın sürətləndirilməsinin, ekoloji və demoqrafik problemlərin həll edilməsinin, enerji, ərzaq, içməli su çatışmazlığına çarə tapılmasının, kosmosdan istifadə məsələsinin tənzimlənməsinin zəruri olduğunu irəli sürür. Həmçinin silah və narkotik maddələrinin ticarəti, yoxsulluq və insan alveri, bir-birindən qorxunc xəstəliklər, sosial ədalətsizlik kimi subqlobal problemlərin həllinin vacibliyinə diqqəti cəlb edir.

## II. Qloballaşma: tərəddüdlər və perspektivlər

Baş verən və həqiqətən dünyanın, mövcud sivilizasiyanın gələcəyi üçün həyati əhəmiyyət daşıyan qloballaşma prosesinin bilavasitə təsiri altına düşən coğrafi ərazilə-

rin genişlənməsi nəticəsində "sürət" və "dəyişiklik" məfhumları tamamilə yeni məna daşımağa başlamışdır. Təbii ki, məzmun və keyfiyyət baxımından fərqli səviyyə kəsb edən informasiyaya adekvat münasibətin formalaşması və onun həyatda tətbiqi texnoloji inkişafın hərəkətverici qüvvəsinə çevrilməsi müsbət haldır. Həmçinin elmi-texniki yeniliklərin insan həyatına bir-birindən fərqli səviyyə qazandırması, fərdlərin mənsub olduqları cəmiyyətlərdə də dəyişikliklərin getdikcə sürətlənməsi tədqirəlayiqdir. Lakin kifayət qədər çoxcəhətli zahiri əlamətlərə malik olan qloballaşmanın mahiyyət etibarı ilə mürəkkəb və ziddiyyətlərlə dolu bir proses olması da şübhə doğurmur. Xüsusilə, son onilliklərin acı təcrübəsi göstərir ki, qloballaşma daha çox əvvəllər bazar iqtisadiyyatının birbaşa təsir dairəsinə daxil olmayan təbii sərvətlərin artıq bu prosesə cəlb edilməsində, ekoloji böhrandan təbii sərvətlərə və ekoloji risklərə birbaşa nəzarət edən beynəlxalq texnokratiyanın təşəkkülü üçün istifadə olunmasında özünü büruzə verir. Hətta sosial münasibətlər də bazar iqtisadiyyatının kölgəsində qalmağa, humanizm, həmrəylik, ədalət və mənəviyyat kimi məfhumlar tədricən aşınmağa başlamışdır. Sadəcə ekoloji standartların tənzimlənməsi və bərqərar olması deyil, ümumiyyətlə hava, su, torpaq da daxil olmaqla ümumi evimiz olan yer kürəsinin təbii ehtiyatlarına nəzarət uğrunda amansız mübarizə gedir. Bunun da məntiqi nəticəsi olaraq, inteqrasiya adı altında insanların həyat tərzində, şüur və davranışlarında, təhsil sahəsində standartlaşdırılmanın artmasında özünü göstərən qloballaşma milli dövlətçilik institutlarının rolunun zəifləməsini və transmilli strukturların fəaliyyətinin güclənməsini qaçılmaz edir. Bu da öz növbəsində çoxşaxəli qloballaşma prosesi nəticəsində dünya birliyinə daxil olan və nisbətən az inkişaf etmiş millətlərin, dövlətlərin iradəsinin nəzərə alınmayacağı bir dünya sisteminin bərqərar olacağına dair ehtimalları artırır.

Digər tərəfdən, Qərbin bəzi dairələri fərqlilikləri zənginlik kimi qəbul etmək əvəzinə, bir çox halda milli və dini müxtəlifliklərdən regional münaqişə ocaqları yaratmağa və bundan da öz mənafeləri üçün faydalanmağa çalışırlar. Beləliklə, qeyriqərb ölkələrindəki fərqlilikər münaqişələrə çevrilincə böyük dövlətlərin mənafeyinə təhlükə törədə biləcək bir güc mərkəzinin varlığının, başqa coğrafiyadakı potensialın sərmayə şəklində iqtisadi inkişafa yönəlməsinin, güclü bir alternativin meydana çıxmasının qarşısı alınmış olur. Bununla belə, hələ də tarixi zərurət olması və ya müəyyən dairələr tərəfindən düşünülmüş şəkildə ortaya atılması ətrafında mübahisələrin davam etdiyi qloballaşmanın qarşısıalınmaz bir proses olduğunu etiraf etmək lazımdır. Bu səbəbdən, gerçəkləri ilə birlikdə ortaya çıxan dəyişiklik amilini inkar etmədən inkişafdan uzaq bir fərd və ya cəmiyyət olmaq yerinə, ehtimal olunan proseslərin nəticələrini əvvəlcədən nəzərə alaraq yeni şəraitə uyğunlaşmağı bacaran fərdlərin yetişdirilməsi əhəmiyyət kəsb edir. Təsadüfi deyildir ki, həyatın siyasi, iqtisadi və mədəni sahələrində müşahidə olunan inteqrasiya meyllərinin təhsilə təsiri artıq günümüzün reallığına çevrilmişdir. Belə olan halda, dəyişikliklərə birinci növbədə təhsil sistemində və müəssisələrində başlanılmalıdır. Çünkü nüfuzlu tədqiqatçıların da fikrinə görə, qloballaşma daha çox keyfiyyətli insan amilinə istinad edir. Təsadüfi deyildir ki, XXI əsrin sürətlə dəyişən informasiya cəmiyyətində yaşamaq fərdlərə yeni bilik və bacarıqların, həyatı boyunca öyrənmək və daha yüksək səviyyə əldə etmək vərdişlərinin qazandırılması ilə mümkün olacaqdır. Bilgi texnologiyalarının sürətli inkişafı, informasiya mübadiləsinin artması fərqli mədəniyyətlərlə təması asanlaşdırmaqla birlikdə informasiyanı əldə etməyi, mövcud variantlar arasından ən uyğun olanını seçməyi və başqaları ilə paylaşmağı bacaran fərdlərin yetişdirilməsinə

olan ehtiyacı da gündəmə gətirir. Çünki gələcəkdə demokratik dəyərlərin bərqərar olduğu sülh və əmin-amanlıq şəraitində yaşamağın yeganə yolu fərqli irq, etnik, din, cinsiyyət, dil, və s. kimliklərə sahib olan qrupların bir-birilərinə qarşı davranışlarında tolerantlıq prinsiplərinə nə dərəcədə əməl etmələrindən asılı olacaqdır.[1] Bütün bunları nəzərə aldığımızda, qloballaşma prosesinə qarşı çıxmaq, özünü dünyadan təcrid etməyə çalışmaq yerinə, baş verən proseslərin mahiyyətini dərk etmək, kimə və hansı məqsədə xidmət etdiyini təsbit etmək, imkan daxilində gedişata müdaxilə etmək, milli maraqları qorumaq məqsədilə alternativ ideyalar irəli sürmək lazımdır.[2] Bir sözlə, qloballaşma prosesinin özündən daha çox onun doğuracağı nəticələr barədə düşünmək, onları təhlil etmək, faydalı cəhətlərindən bəhrələnməyin, mümkün fəsadlarından sığortalanmağın yollarını axtarıb tapmaq daha məqsədəuyğundur. Xüsusilə, bu proses çərçivəsində bir çox yeniliklərin, innovasiyaların həyata keçirildiyi milli təhsil sistemi daha ciddi və dərin təhlilə cəlb olunmalıdır. Daha doğrusu, qloballaşma amilinin ümumən təhsil siyasətinə, təhsilin keyfiyyət göstəricilərinin yüksəldilməsinə, maliyyələşdirilməsinə, idarə olunmasına, forma və məzmununa mümkün təsirləri araşdırılmalıdır.

Bununla belə, təhsilin qeyd-şərtsiz qloballaşmanın diktəsi altına düşəcəyini də iddia etmək doğru deyildir, çünki qloballaşmanı həyata keçirən insanlar özləri bilavasitə təhsilin süzgəcindən keçdiklərinə görə təhsildə baş verən prosesləri öz məqsədlərinə uyğunlaşdırmaq imkanına malikdir. Deməli, təhsil sadəcə yeniləşən dünyaya inteqrasiya məqsədinə deyil, eyni zamanda qloballaşmanın meydana gətirdiyi problemlərin həllinə xidmət edən təsiredici bir vasitə kimi çıxış edə bilər. Nəhayət, hal-hazırda müasir sivilizasiyasının mənəvi dəyərlər sahəsində böhran yaşaması qloballaşmanın insan həyatına artan müdaxiləsi müəyyən narahatlıqlar doğurmaya bilməz. Təbii ki, bilavasitə qloballaşmanın baş verdiyi belə bir zaman kəsiyində hər bir dövlətin və millətin gələcəyi baxımından həyati əhəmiyyət kəsb edən ali təhsil sisteminin gələcək taleyi ilə bağlı narahatçılıq məsələnin aktuallığını daha da artırır.

## III. Qloballaşma və milli təhsil münasibətləri müstəvisində ali təhsil

Sivilizasiyanın əsas fenomenlərindən biri sayılan təhsil insanın “sosial varlıq” olaraq tarix səhnəsinə çıxdığı və ilk təcrübəsini ötürməyə ehtiyac hiss etməyə başladığı vaxtdan etibarən başlıca amilə çevrilmişdir. Bəşər mədəniyyətinin yüksəlişində müstəsna rol oynamış sivilizasiyaların meydana gəldiyi tarixi şəraitə nəzər salarkən onların hamısının təmsil etdiyi dövrə görə inkişaf etmiş təhsil sisteminin və elmin sayəsində uğur qazandığını təsbit etmək mümkündür.[3]

Bilavasitə haqqında bəhs etdiyimiz mövzuya gəlincə, elmi dövriyyədə təhsildə qloballaşmanın tarixinin hələ XIX əsrin son rübündə başladığı və onun da nəticəsində bəzi dövlətlərin sürətlə inkişaf etdiyinə, bəzilərinin isə tənəzzülə uğradığına dair müəyyən fərziyyələr mövcuddur. Bütün hallarda elmi-texnoloji üstünlüklərə, informasiyaya malik olanların dünyaya hökmranlıq etdikləri məlumdur. Məhz bu səbəbdən, hər bir ölkənin qloballaşma şəraitində dünya təhsil sisteminə inteqrasiya olunması, öz təhsil sistemini beynəlxalq miqyasda qəbul edilmiş təhsil modellərinə uyğunlaşdırması zamanın tələbi olaraq ortaya çıxır. Təhsilin də gələcəyə yatırılan bir sərmayə olduğu nəzərə alındığında qloballaşmanın təhsilin planlaşdırılması və həyata keçirilməsi mərhələlərində müsbət və ya mənfi mənada təsirli olacağı qaçıl-

mazdır. Belə ki, qlobal proseslər nəticəsində elitar artıq bir xidmət sahəsi olmaqdan çıxaraq kütləvi səciyyə daşıyan ali təhsildə, o cümlədən universitetlərin fəaliyyətində kifayət qədər ciddi dəyişikliklər baş verir.

Təhsil sahəsində qloballaşma ilk növbədə bir-biriləri ilə sıx əlaqələri olan millətlərin ölkələr arasında sərbəst hərəkət etmək və müstəqil şəkildə iş yeri tapmaq, xalqların, millətlərin qarşılıqlı anlaşmasını və fəaliyyət göstərməsini, təmin etmək imkanına malik olan fərdlər yetişdirilməsində özünü göstərir. Bu qəbil insanlardan həmçinin fərqli şəraitdə yaşamaları, fəaliyyət göstərmələri və mədəniyyətlərarası dialoqun fəal iştirakçıları olmaları da gözlənilir. Başqa sözlə desək, informasiya əsrində təhsilin başlıca qayəsi milli kimliyini itirməmək şərti ilə müxtəlif mədəniyyətlərin hakim olduğu coğrafiyalarda mövcud şəraitə uyğunlaşmağı və uğur qazanmağı bacaran dünya vətəndaşları yetişdirməkdir. Belə olan halda, qloballaşma şəraitində yalnız öz ölkəsində oxumaq məcburiyyətində qalmayan hər bir vətəndaş təhsil alacağı ölkəni və tədris ocağını sərbəst şəkildə seçmək hüququ əldə edir. Artıq internet vasitəsilə reallığa çevrilən bu imkan nəticəsində insanlar hətta evlərindən çıxmadan dünyanın hər hansı bir yerindəki şirkətdə işləyə bilirlər. Əgər biz gələcəyimizi təhsilsiz təsəvvür etmirsək, o zaman bu prosesin gələcək həyatımızdakı rolunu nəzərə alaraq qloballaşan dünyada ümumbəşəri dəyərləri mənimsəmiş, milli dəyərləri qoruya bilən fərdlərin yetişdirilməsi təhsilin başlıca səciyyəvi xüsusiyyəti olaraq qalmağa davam edir.

Qloballaşmanın təhsil üzərindəki təsirinin və ya təhsilin qlobal inkişafla əlaqəsinin artmasının ən bariz əlamətlərindən biri də intellektual potensialın bəlli mərkəzlərdə cəmləşməsi prosesidir. Artıq universitetlərin gündəliyinə daxil olmuş E-təhsil, tədris və araşdırma prosesində internetdən istifadə edilməsi, təhsil sahəsində müştərək beynəlxalq layihələrin həyata keçirilməsi, veb və ya video konfransların, distant (məsafədən) təhsilin təşkili təhsilin qloballaşmasına dəlalət edən amillərdir. İş şəraitinin və şərtlərinin dəyişməsi nəticəsində əmək bazarının tələblərinə uyğunlaşmaq üçün yeni peşə vərdişləri qazanmağa ehtiyacın artdığına görə fasiləsiz təhsil məsələsi də gündəmə gəlmişdir. Beləcə, internetin də verdiyi imkanlar sayəsində artıq universitetlər sadəcə yerləşdikləri ölkələrə deyil, digər ölkələrə də təhsil xidməti təklif edə bilir. Beynəlxalq münasibətlərin müasir durumu, ölkələrin və xalqların inkişaf səviyyəsi bəzi milli təhsil sisteminin xarici vətəndaşlar üçün daha cəlbedici olduğunu göstərir. Bunun da başlıca səbəbi həmin təhsil sistemlərin özünəməxsus güclü ənənələrə, elmi məktəblərə, müasir tələblərə cavab verən  tədris planlarına malik olması, müəyyən hallarda isə təhsil haqqının daha sərfəli olması ilə bağlıdır.

Aparılan təhlillər göstərir ki, ABŞ, Böyük Britaniya və Almaniya universitetləri ümumən beynəlxalq təhsil və xarici vətəndaşlar üçün cazibə mərkəzi halına gəlmişdir. Bu da öz növbəsində xarici tələbələr üçün açılmış proqramlardan əldə olunan vəsaitin artmasına və universitetlərin beynəlmiləlləşdirilməsi prosesinə güclü təkan verir. Lakin universitetlərin heç də hamısının beynəlxalq təhsilin təminatçısına çevrilməsinin real olmadığını irəli sürən mütəxəssislər də yox deyildir. Buna görə də keçən əsrin 70-ci illərdə dövriyyəyə buraxılmış "dünyanı dəyişdirmək universiteti dəyişdirməkdən daha asandır" iddiasının əksinə olaraq, son illərdə ali təhsildə genişmiqyaslı və köklü dəyişikliklər baş verir. Hətta əhatə dairəsi və mahiyyəti dəyişikliklərin təkamül yolu ilə həyata keçmədiyini və inqilabi səciyyə daşıdığını söyləməyə imkan verir. Ali təhsilin təşkilində və srtuk-

turunda ənənəvi institutlaşma və coğrafi çərçivə anlayışına sığmayan yeni rəqabət formaları tətbiq olunur. Bu da virtual, lisenziya (françayzinq), korporativ universitetlərinin, ali təhsilin ofşor zonalarının, universitet konsorsiumlarının, KİV tərəfindən təsis edilmiş şirkətlərin, kitabxanaların, muzey və bənzəri mədəni-maarif müəssisələrinin, təhsil brokerlərinin meydana çıxmasına rəvac verdi. Eyni zamanda, distant (məsafədən) və virtual təhsil formaları ali təhsilin ümumi mənzərəsini bir xeyli dəyişdirdi. Ənənəvi olaraq biliyin aşılandığı əsas məkan kimi  tanınan ali məktəblər üçün milli sərhədlər və ərazilər nisbi səciyyə daşımağa başladı. Beləliklə, yerləşdiyi ərazidən  kənara çıxan  universitetlər müasir cəmiyyətin bütün sahələrini, hətta onlayn təhsil proqramları vasitəsi ilə korporasiya, dövlət və hökumət qurumlarının əməkdaşlarını da əhatə edəcək dərəcədə çeviklik qazandı. Nəticədə, maddi planda universitet şəhərciyinin imkanlarından istifadə etməkdən daha çox virtual təhsil müəssisələrinin müxtəlif kommersiya, rabitə və multimedia strukturları ilə əməkdaşlıq etməsinə zərurət yarandı. Ali təhsildə klassik universitet məfhumu üçün xas olmayan transmilli korporasiyalar, yeni-yeni tərəfdaşlıq, koalisiya növləri və alyanslar meydana gəldi. Elmi-tədqiqat işlərinin aparılması, mövcud elmi-metodik materialların mübadiləsi və tədrisin keyfiyyətinə nəzarətin gücləndirilməsi sahəsində səylərin birləşdirilməsi məqsədi ilə 2000-ci ilin aprel ayında Böyük Britaniya, ABŞ, Kanada, Avstraliya, Yeni Zelandiya və Sinqapurun bir sıra universitetlərini özündə birləşdirən qlobal virtual təhsil müəssisəsi təşkil olundu. Lakin bu qəbil tərəfdaşlıq nəticəsində təhsil sistemi daxilində və xaricində öz vəzifələrini bölüşmək məcburiyyətində qalan ali təhsil müəssisələri təhsilin keyfiyyəti, onun qiymətləndirilməsi və daha çox insana şamil edilməsi problemləri ilə qarşılaşmış oldu. Bu da öz növbəsində klassik mənada bilik verən tədris ocağı olmaqdan daha geniş müştəri auditoriyasına xidmət göstərən müəssisəyə çevrilən universitetlər qarşısında ciddi dəyişikliklər həyata keçirməklə yeni sosial-mədəni şəraitə uyğunlaşmaq tələbini qoydu. Məhz bu amil bir tərəfdən P.Skott, Z.Bauman və D.Delanti kimi tədqiqatçılara klassik universitet təhsilinin ciddi böhran keçirdiyini, digər tərəfdən isə onun mövcud vəziyyətdən çıxmaq qabiliyyətinə malik olduğunu qeyd etməyə imkan verdi.[4]

Beləliklə, qloballaşma və milli təhsil müstəvisində universitet mahiyyət və qarşısında duran vəzifələr baxımından yeni məzmun kəsb etdi. Beynəlxalq təhsilin bəlli universitetlərdə təmərküzləşməsi prosesinə paralel olaraq  yerlərdə də müasir tələblərə cavab verən ali təhsil müəssisələri şəbəkəsinin inkişaf etdirilməsi təmayülü hiss olunmağa başladı. Nəticədə, bilavasitə yerlərdə fəaliyyət göstərən ali məktəblərin cəlbediciliyinin artırılması kimi başa düşülən "beynəlxalq status" məfhumu da yeni məna kəsb etmiş oldu.

## IV. Azərbaycan ali təhsil sistemində inteqrasiya meyilləri və görülən işlər

1991-ci ildə müstəqilliyini qazanan Azərbaycanın alternativsiz vahid hakim partiyanın siyasi hakimiyyətinin hökm sürdüyü və planlı iqtisadiyyata əsaslanan sosializm ictimai-siyasi formasiyasından kapitalizm sisteminə keçməsi nəticəsində təhsil sisteminin də yeni şəraitə uyğunlaşdırılması zərurətə çevrildi. Bu zaman kosmetik dəyişiklilər aparmaqla mövcud təhsil sisteminin olduğu kimi saxlanılması və ya sovet təhsil sistemenindən tamamilə imtina edilməsi, nəhayət sosialist təhsil sisteminin onillərlə özünü doğrultmuş əhəmiyyətli ünsürlərini seçmək və beynəlxalq təhsil sistemlərinin nailiyyətlərini öyrənməklə yeni ictimai-siyasi sistemin imkanlarını və

demokratik cəmiyyət quruculuğunun tələblərini nəzərə almaqla milli təhsil sisteminin qurulması təkliflərindən ibarət üç fərqli yanaşma mövcud idi. Təəssüflər olsun ki, hələ 1991-ci ildə ciddi kompleks elmi-tədqiqat işləri aparılması nəticəsində respublikanın rəhbər orqanlarına təqdim edilmiş "Azərbaycan Respublikasının milli təhsil konsepsiyası" həyata keçirilmədi.[5] Həmçinin 1992-ci ildə təsdiq olunan Təhsil Qanununa görə ölkənin ali məktəblərində ikipilləli ali təhsil sisteminə keçilməsi, bakalavr və magistratura pillələri üzrə kadr hazırlığının aparılması nəzərdə tutulsa da bir sıra obyektiv səbəblərdən bu məsələlərin əksəriyyəti kağız üzərində qaldı.[6] Bəhs etdiyimiz məsələlərin həlli ancaq ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra milli təhsil sisteminin qurulması məqsədilə yaradılmış komissiya tərəfindən Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq hazırlanmış "Təhsil islahatları proqramı"nın təsdiq edilməsindən və iki fərman imzalandıqdan sonra mümkün oldu.

Bu sənədlər əsasında təhsil sistemində yenilik və müasir texnologiyaların tətbiqi, islahatlar istiqamətində məqsədyönlü fəaliyyətə başlandı. Təhsil sektoru üçün büdcə vəsaiti ardıcıl olaraq ilbəil artırıldı, müəllimlərin sosial müdafiəsi gücləndirildi və tədris müəssisələri şəbəkəsi təkmilləşdirildi. Xüsusilə, müstəqilliyin ilk dövründə fəaliyyətə başlamış özəl təhsil müəssisələrinin təşkili və dövlət qeydiyyatına alınması prosesində baş verən neqativ halların qarşısı alındı. Əfsuslar olsun ki, ilk dövrdə çoxlu sayda xarici təhsil müəssislərinin filiallarının fəaliyyətə başlaması, hətta xarici ölkələrdə fəaliyyət göstərən filialların Azərbaycanda, paytaxt ali məktəblərinin isə bölgələrdə filial açması özəl təhsil sistemini normal inkişaf məcrasından çıxarmışdı. Nəticədə, əsasən ali təhsil müəssisələrinin təşkili hesabına təktərəfli və əsassız şəkildə çoxalan, kifayət qədər mənfi imic qazanan özəl təhsil müəssisələri arasında həqiqətən Azərbaycan təhsilinin inkişafına xidmət edəcək qurumlar əlverişsiz şəraitdə fəaliyyət göstərməyə məhkum edildi. Məqsədi və verdiyi təhsilin səviyyəsi nəzərə alınmadan ictimaiyyət tərəfindən eyni münasibətlə qarşılaşan, sağlam rəqabət imkanından məhrum edilən bu qəbil təhsil müəssisələri xarici ölkələrlə müqayisədə lazımi güzəştlərdən istifadə edə bilmirdilər. Təəssüflər olsun ki, xalqımızın da tarixində kifayət qədər örnəkləri olan maarifçilik və xeyriyyəçilik kimi nəcib təşəbbüslərin dirçəldilməsinə, dövlətin yükünü azaltmaq kimi ülvi bir qayəyə xidmət etmək yerinə, qeyd etdiyimiz səbəblər ucbatından özəl təhsil sistemi bazar iqtisadiyyatı adı altında baş verən hərc-mərcliyin qurbanı oldu. Nəhayət, böyük dövlət xadimi Heydər Əliyev tərəfindən özəl ali məktəblərin fəaliyyətinin tənzimlənməsi Təhsil Nazirliyinə həvalə olunduqdan sonra bu sahədə müəyyən stabillik yarandı.[7] Ən başlıcası isə, iqtisadiyyatın və cəmiyyətin dayanıqlı inkişafının təmin olunmasında fəal mövqe nümayiş etdirən, müstəqil və məhsuldar iş icra etməyi bacaran sağlam vətəndaş formalaşdırmanın təhsil üzrə kompleks islahatın əsas məqsədinə çevrilməsi istiqamətində işlər görülməyə başladı.[8] Sayları minimum həddə endirilmiş özəl ali məktəblər qarşısında maddi-texniki və tədris bazasının, kadr potensialının təkmilləşdirilməsi və təhsil səviyyəsinin yüksəldilməsi əsas tələb olaraq qoyuldu. Dövlət universitetlərindən yeddi ali təhsil müəssisəsinə muxtariyyət hüququ verildi. Ümumiyyətlə, Dünya Bankı ilə əməkdaşlığın inkişaf etdirilməsi ilə yanaşı, təhsilin bütün pillələri, onların hər birinin mövcud vəziyyəti, problemlərinin, onların həlli istiqamətində mərhələlər üzrə həyata keçiriləcək tədbirlərin öz əksini tapdığı bəhs etdiyimiz proqram çərçivəsində görülən işlər nəticəsində son beş ildə ali təhsil sistemində əhəmiyyətli dəyişikliklər baş verdi.[9]

Avropaya inteqrasiyanın günün tələbi və qaçılmaz zərurət olduğu nəzərə alınaraq Azərbaycanda təhsil sisteminin də inteqrasiyası istiqamətində zəruri addımlar atıldı. Bu da ümumən təhsilin formaca və məzmunca zənginləşməsinə, yeni təlim texnologiyalarının tətbiqinə imkan verdi. Ən başlıcası, beynəlxalq əlaqələrin inkişafı və tədris prosesində İKT-dən istifadə olunması üçün əlverişli imkan yarandı. Digər tərəfdən, Azərbaycan postsovet respublikaları üçün nəzərdə tutulmuş Tempus, Erasmus Mundus kimi bir sıra beynəlxalq təhsil layihələrinin fəal iştirakçısına çevrildi. Ənənəvi 5 illik təhsilin yerinə, ali təhsildə bakalavariat və magistratura olmaq şərti ilə ikipilləli təhsil sistemi tətbiq edilməyə başlandı, çoxballı qiymətləndirmə sistemi həyata keçirildi. Bununla da, Azərbaycan ali təhsilində "ikipilləliyin tam tətbiqi, təhsilalma prosesində tələbənin hüquqlarının və sərbəstliyinin genişlənməsi, məsuliyyətinin artırılması, tədris olunan kursun tam mənimsənilməsi, neqativ halların aradan qaldırılmasına lazımi şərait yaradan kredit sisteminə keçilməsi, təhsilin keyfiyyətinə nəzarətin səmərəli mexanizmlərini özündə birləşdirən müasir attestasiya və akkreditasiya sisteminin qurulması"[10] kimi bir sıra mühüm yeniliklər həyata keçirildi.

Dövlət rəhbəri kimi fəaliyyət göstərdiyi müddət ərzində Azərbaycanda dinamik iqtisadi inkişafın sürətləndirilməsinə, cəmiyyət həyatının bütün sahələrində mütərəqqi islahatların aparılmasına etibarlı təminat yaradan cənab İlham Əliyev elm və təhsilin problemlərini də diqqət mərkəzində saxlayaraq ulu öndərin bu sahədə müəyyənləşdirdiyi prioritetlərin varisliyini təmin etdi.[11] Məhz yaşadığımız dövrün tələbinə uyğun olaraq məzmun etibarı ilə keyfiyyətli inkişaf, və dəyişiklik yolunu tutan Azərbaycan təhsili ölkənin gələcək inkişaf modelinin və insan kapitalının formalaşmasına xidmət edən ümumtəhsil hərəkatı başlandı. Dövlət başçısının təhsilə milli inkişafda prioritet sahə kimi yanaşdığı bir şəraitdə bilavasitə Fondun təşəbbüsü ilə dövlət və özəl qurumların, habelə bəzi vətəndaş cəmiyyəti strukturlarının dəstəklədiyi «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsi çərçivəsində 2005-ci ildə Azərbaycanın müxtəlif regionlarında 132 məktəb binasının inşa olunaraq lazımi avadanlıqlarla təchiz edilməsində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın təhsil sahəsindəki fəaliyyəti xüsusi qeyd olunmalıdır. [12]

2005-ci ildən etibarən Bolonya prosesinə qoşulmaqla Azərbaycan bir daha birmənalı şəkildə Avropa təhsil məkanına inteqrasiya prosesini dərinləşdirmək əzmini nümayiş etdirdi. Tamamilə könüllülük prinsipləri əsasında bu prosesə qoşulan ölkələr malik olduqları ali təhsil sistemlərində keyfiyyəti yüksəltmək və tərəfdaş ölkələr arasında ümumi qəbul olunmuş standartları tətbiq etmək üçün ciddi islahatların həyata keçirilməsinə dair müəyyən öhdəliklər götürdülər. Azərbaycan Bolonya prosesinə qoşulduqdan sonra ali təhsildə aparılacaq islahatların konturları yenidən müəyyənləşdirildi. Bolonya Bəyannaməsinin müddəalarını həyata keçirmək üçün 2006-2010-cu illəri əhatə edən Tədbirlər Planı hazırlanıb təsdiq edildi.[13] Həmin plana əsasən „Bakalavr hazırlığının məzmununa və səviyyəsinə qoyulan minimum dövlət tələblərinin strukturu" təsdiq olundu və yeni nəsil dövlət təhsil standartları işlənib hazırlandı. „Ali təhsil müəssisələrində kredit sistemi ilə tədrisin təşkili barədə nümunəvi Əsasnamə" hazırlanıb təsdiq edildi. Xarici ölkələrdə təhsil alanlarının diplomlarının Azərbaycanda tanınması üzrə müvafiq tədbirlər həyata keçirildi. Avropa Komissiyası, Avropa Şurası və UNESCO-nun ekspertlərindən ibarət işçi qrupu tərəfindən hazırlanmış diploma əlavənin (Diploma Supplement) modeli əsasında ali təhsil haqqında diploma əlavənin nümunəsi ha-

zırlandı. Həmçinin „Ali təhsilin bakalavr pilləsi ixtisaslarının (proqramlarının) yeni siyahısı hazırlanaraq təsdiq edildi.

Ancaq burada qeyd olunan köklü islahatlar heç də milli hökumətlərin yeniləşən ali təhsil sistemi ilə əlaqədar öz konsepsiyalarını başqalarına qəbul etdirməsi məqsədini daşımır. Əksinə, Bolonya bəyannaməsi standart və ya təktipli bir ali təhsil sisteminin qurulmasını deyil, universitetlərin müstəqilliyini təmin edən muxtariyyət prinsiplərinin, müxtəlifliliyin qorunub saxlanılması şərti ilə inteqrasiyanın həyata keçirilməsinə üstünlük verir. Bununla da siyasi bir qərar olmaqdan daha çox konkret icra tarixlərinin də əksini tapdığı mərhələlərə bölünmüş müştərək fəaliyyət planı olan sözügedən bəyannamə Avropanın ortaq problemlərinə həll yolları axtarıb tapılması məqsədinə xidmət edir. 2010-cu ildə başa çatması nəzərdə tutulan prosesin qarşısında Avropa vətəndaşlarının işlə təmin olunma, sərbəst hərəkət etmə imkanlarını və Avropa ali təhsilinin beynəlxalq rəqabət gücünü artırmaq üçün ali təhsildə Avropa təhsil məkanı formalaşdırmaq vəzifələri də durur. Həmçinin kredit sisteminin tətbiq edilməsi, tələbə mobilliyini təşviq etmək məqsədi ilə milli təhsil sistemləri tərəfindən ortaq dərəcələndirmə sistemi kimi qəbul olunan və Avropa təhsil məkanına inteqrasiya üçün baza təşkil edəcək AKTS-nin (Avropa Kredit Transfer Sisteminin) təşəkkülü prosesi davam edir. Distant (məsafədən) təhsil də daxil olmaqla fasiləsiz təhsil fəaliyyətini də əhatə edəcək bu sistemin tətbiqi nəticəsində müqayisə edilə biləcək meyar və metodlara əsaslanan ortaq keyfiyyət təminatı standartlarının qəbul edilməsi gözlənilir.

Bununla belə, inteqrasiya prosesi çərçivəsində aparılması tələb olunan islahatların əhatə dairəsi, milli, regional və ya qlobal ehtiyaclara cavab verə bilən bir modelin tətbiq edilməsi xüsusi əhəmiyyət kəsb edir. Milli, regional və qlobal ehtiyaclar nəzərə alındıqdan sonra qarşıya necə bir kadr hazırlığı aparılmalıdır sualına cavab axtarılmalıdır. Digər tərəfdən, qloballaşma prosesinin təsiri altında formalaşan yeni ictimai-iqtisadi münasibətlərə keçid şəraitində meydana çıxan fərqli sosial-mənəvi mühitə ənə-nəvi üsullarla yanaşmağın yenidən nəzərdən keçirilməsi də az əhəmiyyət kəsb etmir. Ən başlıcası isə, gənc nəslə başqalarının fikrinə qarşı hörmətlə yanaşmaq hissi və dözümlülük nümayiş etdirmək vərdişinin aşılanması lazımdır.

Son dövrdə Azərbaycanda bu isiqamətdə atılımış addımları nəzərə aldığımızda sözügedən prosesin uğurla başa çatdırılması üçün bilavasitə ali məktəblər qarşısında həllini gözləyən bir sıra məsələlərin durduğunu qeyd etmək lazımdır:

1. Tədris planlarının təkmilləşdirilməsi istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirilməli və təlimdə İKT-nin tətbiqinə, fəal təlim metodlarından istifadə edilməsinə diqqət artırılmalıdır. Tələbələrə mücərrəd nəzəri biliklər aşılamaq yerinə, iş həyatında tələb olunan, həyata keçirilməsi mümkün və zəruri olan biliklərin verilməsini təmin etmək lazımdır.

2. Mövcud təlim-tərbiyə sistemində müəllim-tələbə münasibətləri kontekstində tələbələrin müəllimi seçmə hüququnu təmin edən bir sıra təxirəsalınmaz tədbirlər həyata keçirilməlidir. Yeniləşən dünyanın tələblərinə uyğun olaraq getdikcə daha çox istiqamətverici rol oynamağa başlayan müəllimin özü də yeniləşməklə bərabər, onun təlim üsulları da dəyişməlidir. Müəllim tələbəyə necə öyrənməyin yollarını göstərməli, aldığı bilikləri təhlil və tətbiq etmək bacarıqları aşılamalıdır.

3. Yeni formalaşacaq tədris sistemi ilə varılması nəzərdə tutulan hədəflər və tələbələrə qazandırılması tələb olunan keyfiyyətlərin nədən ibarət olduğu dəqiq şəkildə

müəyyən edilməlidir. Məzunların işlə təmin olunması üçün ali məktəblərlə işəgötürənlərlə yeni münasibətlərin formalaşması, əməkdaşlıq növlərinin axtarıb tapılması və əmək bazarının tələblərinin öyrənilməsi istiqamətində məqsədyönlü iş aparılmalıdır.

4. Hər bir ali məktəb internet vasitəsi ilə tələbələrin istifadəsi açıq olan elektron kitabxana sisteminə malik olmalıdır.

5. Müxtəlif ölkələrdə yerləşən ali məktəblər arasında elmi-texniki əməkdaşlığa, müəllim mübadiləsinə çeviklik qazandırmaq məqsədi ilə universitetlərarası əməkdaşlıq çərçivəsində daha çox müxtəlif qurumlarda fəaliyyət göstərən professor-müəllim heyəti və tədqiqatçılar arasında müştərək elmi layihələrin həyata keçirilməsini, araşdırmaların aparılmasını təşviq etmək lazımdır.

6. Elmi tədqiqatların nəticələrinin, elmi-metodik materialların mübadiləsi, təhsilin keyfiyyətinə nəzarət imkanlarının genişləndirilməsi məqsədi ilə səylərin artırılmasını təmin etmək üçün virtual təhsil müəssisələrinin və ümumdünya universitet şəbəkəsinin qurulmağa başladığı bir şəraitdə rəqabətə davamlılığın əlavə yolları axtarılıb tapılmalıdır.

7. Nəhayət, yuxarıda qeyd olunmuş vəzifələrin yerinə yetirilməsi üçün müasir tələblərə cavab verən, dərin təfəkkürə, pedaqoji və metodik ustalığa malik müəllim kadrlarının hazırlığı daima diqqət mərkəzində olmalıdır.

## V. Nəticə

Qloballaşan dünyada layiqli yer tutmaq istəyən hər bir cəmiyyətin təhsildə keyfiyyətcə tamamilə yeni bir səviyyəyə çıxması labüddür. Ancaq unudulmamalıdır ki, forma baxımından beynəlmiləl, məzmun baxımından milli səciyyə daşıyan təhsil standartlarının tətbiq edilməsi Avropanın bu və ya digər bir ali məktəbi ilə ikitərəfli elmi-texniki əməkdaşlıq, tələbə mübadiləsi həyata keçirməyə imkan verəcəkdir. Həmçinin Azərbaycan ali məktəblərinin hazırlıq səviyyəsindən asılı olaraq Bolonya prosesinin faydalarından və zərərlərindən danışmaq mümkün olacaqdır. Təhsil sahəsində inteqrasiyanın uğurla və yüksək səviyyədə başa çatdırılması öz növbəsində Azərbaycanda verilmiş diplomların Avropa məkanında tanınmasına və qəbul edilməsinə imkan verəcəkdir.

### ƏDƏBİYYAT


1. Yalçın Cemal. "Küreselleşme, Çokkültürcülük ve Eğitim", Eğitim Araştırmaları Dergisi, Ocak 2002, Sayı 6, sah. 70
2. Kaçmazoğlu Bayram. "Doğu-Batı Çatışması Açısından Globalleşme", Eğitim Araştırmaları Dergisi, Ocak 2002, Sayı 6, sah. 54
3. Зотов Ю. Взгляд учителя . Журнал «Вестник высшей школы», 2001. № 4.с.3
4. Налетова И. В. Классические университеты в условиях глобализации. с.174
5. Qaralov Zahid. Təhsil sistemlərinə müasir baxış. Bakı, Pedaqogika, 2003, s.10-11
6. Mərdanov Misir. Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı, "Çaşıoğlu", 2009, s. 13
7. Mərdanov Misir. Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı, "Çaşıoğlu", 2009, s. 13
8. Qaralov Zahid. Təhsil sistemlərinə müasir baxış. Bakı, Pedaqogika, 2003, s.12
9. Mərdanov Misir. Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı, "Çaşıoğlu", 2009, s. 13
10. Mərdanov Misir. Azərbaycan təhsili dünən, bu gün, sabah. Bakı, "Təhsil", 2006, s.162
11. Hüseynova İradə. "Heydər Əliyev və Azərbaycanda elm-təhsil siyasəti". Ümummilli lider Heydər Əliyevin anadan olmasının 85 illiyinə həsr olunmuş "Heydər Əliyev və Azərbaycanda dövlət qadın siyasəti" mövzusunda ümumrespublika konfransının materialları, s.14
12. Hüseynova İradə. "Heydər Əliyev və Azərbaycanda elm-təhsil siyasəti". Ümummilli lider Heydər Əliyevin anadan olmasının 85 illiyinə həsr olunmuş "Heydər Əliyev və Azərbaycanda dövlət qadın siyasəti" mövzusunda ümumrespublika konfransının materialları, s.15
13. Mərdanov Misir. Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı, "Çaşıoğlu", 2009, s. 404